Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Nəğmə dolu bir ürəyəm, Ey Vətən

**Xalq artisti Eiza İbrahomovanın 85 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2023**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Nəğmə dolu bir ürəyəm, Ey Vətən -** Xalq artisti Elza İbrahimovanın 85 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2023. – 23 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

## Bölmə I
## Həyat və yaradıcılığı

İnsan ürəyinin ən zərif tellərini titrətməyi bacaran musiqinin, bəstənin müəllifi həmişə xalq tərəfindən rəğbətlə qarşılanır, sevilir, heç vaxt unudulmur. İndi musiqili meydanlarımızı bürümüş müxtəlif səslərin içərisində biz həmişə əvvəlki saf, təmiz, məlahətli musiqiləri eşitmək, mahnıları dinləmək istəyirik. Xüsusilə də xalq mahnılarını, peşəkar bəstəkarların nəğmələrini dinləməyə daha çox ehtiyac duyuruq. Hərdən hiss edirik ki, Fikrət Əmirovun, Cahangir Cahangirovun, Tofiq Quliyevin, Emin Sabitoğlunun mahnıları, Şövkət Ələkbərovanın, Rübabə Muradovanın səsləri üçün darıxmışıq. Fikirləşirsən ki, nə yaxşı ki, Vasif Adıgözəlov, Arif Məlikov, Şəfiqə Axundova, Sevda İbrahimova, Ramiz Mirişli, Elza İbrahimova kimi bəstəkarlar yaşayıb yaradıblar.

Haqqında demək olar ki, çox az yazılan, lakin ən məhsuldar və sevimli bəstəkarlardan biri Elza İbrahimova...Təbiətən reklamdan çox uzaq olan Elza xanımın sənəti haqqında xalq şairi Bəxtiyar Vahabzadə fikirlərini belə açıqlayıb: "Elza İbrahimova mahnı janrında lövhə ustasıdır. O, gözlə görünən dünyanın deyil, görünə bilməyən, içəridən bizi dalğalandıran hisslərin, həyəcanların, bir sözlə, iç dünyamızın rəssamıdır. O, səslərdən toxuduğu nəğmə naxışlarında bizə ovqatımızı, öz iç dünyamızı göstərir. Nəğmələrinin verdiyi bəsirət gözü ilə o bizi özümüzə, daxili aləmimizə baxmağa məcbur edir. Biz gözlərimizin önündə kəpənək kimi uçan sehrli səslərin arxasınca getməyə bilmirik. Onun nəğmələrində gözəgörünməz səslər predmetləşir, gözəgörünən arzulara, duyğulara çevrilir. Bax, budur əsl böyük sənətin gücü və sehri". Məhz bu gücün və sənətin sayəsində Elza xanım elə musiqi bəstələmiş ki, indi də həmin musiqilər əsl milli Azərbaycan mahnılarıdır. Elza xanımın musiqisi elə məlahətlidir, hiss və həyəcanla doludur ki, ona sakit qulaq asmaq mümkün deyil. Unudulmaz şairimiz Əli Kərimin sözlərinə yazdığı bu

mahnıdakı mətnə fikir verin: “Qayıt mənim gülüm, qayıt bu yerə, qayıt sahmana sal bu kainatı...”

Elza xanımın mahnıları hamı, xüsusilə də onun pərəstişkarları üçün ona görə qiymətlidir ki, bu əsərlərdə hər kəsin duyğuları əks olunur. Adama bəzən elə gəlir ki, bu mahnı məhz sənin üçün yazılıb. Bunun da əsas səbəbi bu bəstəkarın musiqisinə xas olan lirikanın həyatdan alınmasıdır. Onun mahnılarında çox ritmik surətdə bəzən böyük bir eşqin dastanı, bir sevənin bütöv bir həyatı əks olunur. Neçə illərdir ki, “Məhəbbət qürbətə gedərmiş” mahnısını sevə-sevə dinləyirik. Və bu məşhur nəğmənin nə sözündə, nə də musiqisində yad bir xal, nəfəs yoxdur. Elza İbrahimovanın yaradıcılıq uğurlarını şərtləndirən əsas amillərdən biri də budur ki, o, musiqisi ilə yeni bir ömür verdiyi mətnin sözlərinə xüsusi diqqət yetirir. Təqdirəlayiqdir ki, o, sözün qədrini bilən bəstəkar olduğundan hər şeirə də mahnı yazmaz. Bu düzgün seçimin nəticəsində Elza xanımın mahnıları illərdir ki, həm müğənnilər tərəfindən ilhamla ifa olunur, həm də dinləyicilər o nəğmələri çox sevirlər. Elza xanımın mahnılarını bir çox məşhurlar oxuyub. Unudulmaz müğənnilərimizdən Rəşid Behbudov, Şövkət Ələkbərova, Flora Kərimova, Mirzə Babayev, Oqtay Ağayev, İslam Rzayev, Natəvan Şeyxova, Akif İslamzadə, Elmira Rəhimova, İlhamə Quliyeva, Aybəniz Haşımova və başqaları dönə-dönə bu istedadlı bəstəkarın yaradıcılığına müraciət ediblər. Mərhum Rəşid Behbudov Elza xanımın mahnılarını xüsusilə sevərmiş. Dünyanın bir çox ölkəsini dolaşmış bu böyük sənətkar hər yerdə məhz Elza xanımın vətən haqqında yazdığı bu mahnını xüsusi şövqlə oxuyarmış:

**Çəməninə qonan şehdən,**
**Dağlarına əsən mehdən,**
**Doya bilmirəm.**
**Bir anamdan,**
**Bir də səndən**
**Doya bilmirəm...**

**Nəğmə dolu bir ürəyəm,**
**Torpağına baş əyərəm,**
**Ey Vətən!**

Hətta görkəmli müğənni Rəşid Behbudovun dəfn mərasimi də məhz bu mahnının sədaları altında olmuşdur.

Saysız-hesabsız mahnılar müəllifi Elza xanım həm də Azərbaycan operasının zənginləşməsində xidmət göstərən istedadlı sənətkardır.

Elza İbrahimovanın mahnılarından hiss-həyəcanla bərabər qəribə düşüncələr də süzülür. Onun elə nəğmələri var ki, insanı özü ilə bir növ hesabata çəkir, ötənlərə nəzər salır, gələcək barəsində düşündürür. Əslində Elza xanımın musiqisi həyatın özü qədər min rəngli, min nəfəslidir və hər nəğmədə də bir insan taleyi yaşayır. Elza İbrahimova məhz talelər üçün nəğmələr qoşan çox istedadlı bəstəkardır. Sənətkarın qanadlandırdığı nəğmələr məhz bahar çiçəklərindən rəng və ömür aldığından həmişə təravətlidir. Bir mahnıda deyildiyi kimi: "Dünya köhnə dünyadır, sevgiləri təzədir". Bax, bu sevgiləri təzə dünyanın köhnə ab-havasından süzülən nəğmələr bizdə bir "nostalgiya" yaradır. Yaxşı ki, dünyada sözün, musiqinin hər hərfinin, notunun üzərində diqqətlə işləyən belə məsuliyyətli və peşəkar sənətkarlar var. Yoxsa musiqili meydanlardakı şoudan cana doyan insanlar əsl sənətin tükəndiyini hiss edərdilər.

Onun ayrı sənəti yox idi. Mənalı ömrünün demək olar ki, hamısı şırmayı dillərlə təmasda keçir, yazır yaradırdı. Heç başqa umacağı da yox idi. Amma şərəfli əməyi istər xalq, istərsə də dövlətimiz tərəfindən həmişə layiqincə qiymətləndirilib. Elza İbrahimova Azərbaycan incəsənətinin, musiqisinin inkişafında göstərdiyi xidmətlərə görə ulu öndər Heydər Əliyevin sərəncamı ilə respublika prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür. Elza İbrahimova yazdığı mahnıları ilə onu dinləyənlərin qəlbinə daima işıq salıb. Elə bir işıq ki, bu işıq həmişə ürəkləri ilhama gətirir.

**Yubiley tədbirlərinin keçirilməsi:**

Milli musiqimizin gözəl bəstəkarlarından biri Elza İbrahimovanın 85 illik yubileyi ilə bağlı respublikamızın hər bir musiqi, təhsil ocaqlarında silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulur. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da bəstəkar Elza İbrahimovanın bir musiqi pedaqoqu kimi həyat və fəaliyyətdən, xidmətlərindən bəhs edən metodiki vəsaitin hazırlanmasını qarşımıza məqsəd qoymuşuq. Vəsaitin hazırlanmasında məqsədimiz Elza İbrahimova yaradıcılığını oxucular arasında geniş təbliğ etmək, çoxillik bəstəkarlıq fəaliyyətini gələcək musiqiçilərə, oxuculara çatdırmaqdan ibarətdir.

İlk öncə F. Köçərli adına Respublika Uşaq Kitabxanasında təşkil olunan tədbirlərlə sizləri tanış edək. Kitabxanada təşkil olunan tədbirlərdən birincisi kitab sərgisidir. Sərgi əsasən kitabxananın oxu zalında təşkil olunur. Bəstəkarın yazdığı bir çox musiqi dərslikləri, musiqi notları ilə yanaşı, haqqında yazıldığı kitablar sərgidə nümayiş olunur. Sərgiyə gələn qonaqlar sərgi ilə tanış olduqdan sonra bəstəkar haqqında hazırlanmış slaydla tanış olurlar.

Sərginin nümunəsini sizlər üçün təqdim edirik:

1. Başlıq: “Unudulmaz bəstəkar Elza İbrahimova-85”,
2. Kitablarının nümayişi
3. Dövrü mətbuatda çap olunmuş məqalələrin kartotekası
4. Görkəmli insanların və musiqişünasların Elza İbrahimova haqqında söylədikləri.
5. Fota sərgi
6. **Musiqi parçası**

Çəməninə qonan şehdən,
Dağlarına əsən mehdən,
Doya bilmirəm.
Bir anamdan,
        bir də səndən
Doya bilmirəm…
Nəğmə dolu bir ürəyəm,

## Görkəmli şəxsiyyətlərin Elza İbrahimova haqqında söylədikləri

Elza İbrahimova mahnı janrında lövhə ustasıdır. O, gözlə görünən dünyanın deyil, görünə bilməyən, içəridən bizi dalğalandıran hisslərin, həyəcanların, bir sözlə, iç dünyamızın rəssamıdır. O, səslərdən toxuduğu nəğmə naxışlarında bizə ovqatımızı, öz iç dünyamızı göstərir. Onun nəğmələrinin verdiyi bəsirət gözü ilə o, bizi özümüzə, daxili aləmimizə baxmağa məcbur edir. Biz gözlərimiz önündə kəpənək kimi uçan sehrli səslərin arxasınca getməyə bilmirik, onun nəğmələrində gözə görünməz səslər predmetləşir, gözə görünən arzulara, duyğulara çevrilir. Bax budur əsl və böyük sənətin gücü və sehri!”

Bəxtiyar Vahabzadə,
*Xalq şairi*

Xalq şairi Bəxtiyar Vahabzadə öz sözlərinə yazılan “Gecələr bulaq başı” mahnısını eşidəndə demişdi: “Sən bu şeirin incəliyini məndən yaxşı duymusan”.

Bəxtiyar Vahabzadə,
*Xalq şairi*

“Elza İbrahimova mənim xatirimdə həm yaxşı bəstəkar həm də mükəmməl insan kimi qalib. Elza İbrahimovanın bəstələdiyi musiqi həm söz müəllifi, həm müğənni üçün böyük uğur idi.

Flora Kərimova,
*Xalq artisti, müğənni*

Musiqisevərlərin sevimlisi olan Elza İbrahimova yazdığı mahnıları ilə onu dinləyənlərin qəlbinə işıq salır. Elə bir işıq ki, bu işıq həmişə ürəkləri ilhama gətirir. Buna həm də emosional sənət çağırışı deyərlər. İnsan daima gözəllik və yaşamaq haqqında fikirləşir. Buna görə də Elza İbrahimovanın hər bir nəğməsi insanın bütün düşüncələrində, duyğularında dərin iz buraxan bir hekayədir.

Flora Xəlilzadə,
*Əməkdar jurnalist*

"Mən çox xoşbəxt bir insanam. Çünki, bir çox dahi bəstəkarlarımızla işləmişəm onların içərisində gözəl əvəzolunmaz musiqilərin yaradıcısı Elza İbrahimova da var. Mən Elza xanımın iyirmidən çox mahnısını ifa etmişəm. Hazırda həmin mahnılar fondda durur. Mən heç vaxt Elza xanımı unutmaram. O, son nəfəsimə qədər mənim ürəyimdə yaşayacaq".

Yalçın Rzazadə,
*Xalq artisti, müğənni*

"Elza İbrahimova adı gələndə insan düşünməyə başlayır. Bu insan cox ağır təbiətli, mənəviyyatı yüksək olan insan idi. Mən Elza xanımı sözlərlə ifadə edə bilmirəm. O, barmaqla sayılacaq qədər gülüb, çünki çox ciddi bir xanım idi.

Teymur Əmrah,
*Əməkdar artist, müğənni*

“Mən Elza haqqında nə deyə bilərəm ki... O, artıq öz sözünü deyib. Mənim üçün Elza əvəzolunmaz bir bəstəkar idi. O, bir məktəb idi. Mən Elzanı sözlərlə ifadə edə bilmirəm. Onun “Ötən günlərimi qaytaraydılar” mahnısı mənim həyatımda ifa etdiyim ən şedevr musiqidir. Çox danışmaq istəmirəm. Elza mənim qəlbimdə həmişə yaşayacaq”.

Akif İslamzadə,
*Xalq artisti, müğənni*

“Ölümündən sonra dövlətimiz tərəfindən Elzaya “Mehriban ana” mükafatı verildi. Bu mükafatı mənə təqdim etdilər. Elza öz musiqisi ilə insanları könlündə bir iz qoyub getdi. Elza çox zəngin insan idi. Onun varı-dövləti, maşını, brilliantları, pulu olmayıb. Amma onun var-dövləti şedever əsərləri və zirvədə yer tutan brend adıdır”.

Çingiz İbrahimov,
*Qardaşı*



# Foto sərgi



















F.Köçərli adına Respublika Uşaq Kitabxanasında bəstəkar Elza İbrahimovanın yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də “Sənət dünyamızın, unudulmaz bəstəkarı Elza İbrahimova” adlı söhbətdir. Söhbəti təşkil edən kitabxanaçı tədbirə bir çox musiqişünasları, bəstəkarları dəvət edir. Tədbirdə iştirak edən qonaqlar çıxışlarına belə başlayır: Musiqi mədəniyyətimizdə geniş yayılmış mahnı janrı Elza İbrahimova yaradıcılığında yeni keyfiyyətlər qazanıb.

Müəllifin yaradıcılığına xas sərbəstlik, novatorluq kimi cəhətlər onun bəstələrində də əksini tapıb. Təsadüfi deyil ki, Azərbaycan estradasına tanqo ritmini gətirən ilk bəstəkarlardan biri Elza İbrahimova olub. Onun mahnıları ən ülvi hisslərin vətənpərvərlik, insanlara məhəbbət, sevgi duyğularının özünəməxsus ifadə tərzi ilə seçilib. Bu əsərlərdə Azərbaycan və Qərb musiqisinin uğurlu sintezi var. Bəstəkarın mahnıları emosionallığı və melodikliyi ilə dinləyicini düşünməyə və sevməyə sövq edir. Onun hər bir əsəri dinləyicini fərqli duyğular aləminə aparır. Bütün bu keyfiyyətlər Elza İbrahimovanın əsərlərinə ölməzlik qazandırıb. Təsadüfi deyil ki, Xalq şairi Bəxtiyar Vahabzadə vaxtilə Elza İbrahimovanın yaradıcılığını “mahnı janrında lövhə ustası” kimi xarakterizə edib.

Elza İbrahimovanın Vətən sevgisini, elə-obaya bağlılığını, təbiətə vurğunluğunu tərənnüm edən “Ey Vətən” mahnısı ölməz sənətkarımız Rəşid Behbudovun ifasında Azərbaycanı dünyada tanıdıb və sevdirib.

Azərbaycan şairlərinin əsərlərinə 100-dən çox, həmçinin rus və ləzgi dillərində yazılmış şeirlərə mahnılar bəstələmiş Elza İbrahimovanın təkcə bu janrda yazdığı əsərlər, bəlkə də, on bəstəkarın yaradıcılığı qədərdir desək, şübhəsiz, mübaliğəyə yol vermiş olmarıq. Musiqi bəstələdiyi şeirlərin dolğun məzmunu isə bəstəkarın yüksək bədii zövqünü təsdiqləyir. Elza İbrahimovanın əbədiyaşar sənət naminə çəkdiyi zəhmət layiqincə qiymətləndirilib, dövlətin ən yüksək fəxri adlarına

layiq görülüb. Bundan başqa, sənətkar Dağıstanın Xalq artisti adına, „Dədə Qorqud" Milli Fondu"nun və "Azərbaycan dünyası" beynəlxalq jurnalının ağsaqqallar şurasının qərarı ilə „Mehriban ana" ordeninə layiq görülüb.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 22 dekabr tarixli Sərəncamına əsasən həmin il anadan olmasının 80 illik yubileyi dövlət səviyyəsində qeyd edilən tanınmış bəstəkar, Xalq artisti, Əməkdar incəsənət xadimi Elza İbrahimova bu cür xoşbəxt sənətkarlardandır.

Elza Ibrahimova yaradıcılığının oxucular arasında geniş təbliği üçün keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbirin birinci hissəsi çıxış və məruzələrlə başlayıb, ikinci hissəsi isə bəstəkarın musiqilərinə bəstələnmiş mahnılarla davam edir. "Nəğmə dolu bir ürək" adlı tədbirin ssenarisini sizlər üçün təqdim edirik. Səhnədən bəstəkarın portreti asılır. Səhnə gül-çiçək dəstələri ilə bəzədilir. Aparıcılar səhnəyə daxil olur:

I Aparıcı: Elza İbrahimova 1938-ci il yanvarın 10-da Hacıqabul şəhərində anadan olub. Hələ uşaqkən musiqiyə böyük həvəs göstərmiş, kiçik qızcığazın bu həvəsini nəzərə alaraq valideynləri onu musiqi məktəbinə qoymuşdular. Bakıda 8 nömrəli musiqi məktəbini, 1957-ci ildə A.Zeynallı adına Orta İxtisas Musiqi Məktəbinin bəstəkarlıq sinfini, 1964-cü ildə isə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında Qara Qarayevin kompozisiya sinfini bitirib. Konservatoriyada ilk müəllimi görkəmli bəstəkarımız, Azərbaycanın Xalq artisti Cövdət Hacıyev olub. Təbii ki, böyük sənətkarların fikirləri Elza xanımı bəstəkarlıqla daha ciddi məşğul olmağa ruhlandırmışdı. Mahnı yaradıcılığı Elza İbrahimovanın fəaliyyətində əhəmiyyətli yer tutur. Onun mahnılarının ifaçıları da seçilir: R.Behbudov, F.Kərimova, İ,Rzayev, M.Babayev, İ.Quliyeva, G.Məmmədov, O.Ağayev, A.İslamzadə,

E.Rəhimova və s. Elza xanım bir müddət “Dan ulduzu” vokal-instrumental ansamblında işləmiş, onun rəhbəri, əməkdar insəsənət xadimi Gülarə Əliyeva ilə dostluq etmişdi. Onun yazdığı mahnılar Azərbaycan musiqisinin Rəşid Behbudov, Şövkət Ələkbərova, Lütfiyar İmanov, Sara Qədimova, Gülağa Məmmədov, İslam Rzayev, Flora Kərimova, Oqtay Ağayev, İlhamə Quliyeva, Elmira Rəhimova, Akif İslamzadə, Leyla Şərifova, Yalçın Rzazadə, Mübariz Tağıyev kimi korifeyləri tərəfindən ifa edilib.

Məmməd Rahim, Bəxtiyar Vahabzadə, Adil Rəsul, Əliağa Kürçaylı, Dəmir Gədəbəyli, Ramiz Heydər, Ruzgar Əfəndiyeva, Oqtay Şamil, Rəfiq Zəka, Aslan Abdullayev, Baba Vəziroğlu, Zivər Ağayeva, Ənvər Əlibəyli, Vahid Əziz, Anna Bartkulaşvili kimi şairlərlə əməkdaşlıq edən Elza İbrahimova yüzlərlə mahnının, iki operanın müəllifi olub.

Səhnəyə Milli Konservatoriyanın tələbələri dəvət olunur. Sözləri Əliağa Kürçaylıya, musiqisi Elza İbrahimovaya aid “Təki sən səslə məni” mahnısını ifa edirlər.

Harda olsan, gələrəm,
Təki sən səslə məni!
Darda olsan gələrəm,
Təki sən səslə məni!
Yaxın olsan ya uzaq,
Dərə olsan ya da dağ,
Məni kim saxlayacaq?
Təki sən səslə məni!

Yatmaram ellər ilə,
Əsərəm yellər ilə,
Gələrəm sellər ilə,
Təki sən səslə məni!..
Eşqə yurd isə sinəm,

Qocalıq gəlsə, nə qəm!?..
Dönərəm, gəncləşərəm,
Təki sən səslə məni!..

Sənsən eşqim əməlim,
Gəlsə bir gün də ölüm,
Yetmərəm cana, gülüm,
Təki sən səslə məni!..
Eşqə yurd isə sinəm,
Qocalıq gəlsə, nə qəm!?..
Dönərəm, gəncləşərəm,
Təki sən səslə məni!..

II Aparıcı: Bildirmək yerinə düşər ki, Elza İbrahimovanın yaradıcılığında mahnı janrı üstünlük təşkil edib və ilk mahnısını 1968-ci ildə yazıb. Bir il sonra milli radioda səslənən və Məmməd Rahimin sözlərinə bəstələnmiş “Yalan ha deyil” mahnısı uğur qazandıqdan sonra ikinci mahnı - “Bakının işıqları” ərsəyə gəlib. Mərhum bəstəkarın yenə Şövkət Ələkbərovanın ifasında səslənən bu mahnısı da rəğbətlə qarşılanıb. Tələbələr səhnəyə daxil olur. Sözləri Adil Rəsul, musiqisi Elza İbrahimovaya aid “Bakının işıqları” adlı mahnını səsləndirirlər.

Axşam düşəndə yanar,
Şəhər nura boyanar,
Küçələrdən boylanar,
Qırmızı,yaşıl,sarı,
Bakının işıqları.

Nə gözəldir, qəşəngdir,
Bakımıza çələngdir
Nurdan dəstə çiçəkdir
Qırmızı,yaşıl,sarı,
Bakının işıqları.

Şübhə qədər oyaqdır,
Elə bil ki, mayakdır,
Min gözlü çilçıraqdır,
Qırmızı,yaşıl,sarı,
Bakının işıqları.

Həm mənimdir,həm sənin,
Gözləridir gecənin,
Qırmızı,yaşıl,sarı.
Bakının işıqları.

Elza xanım həm də Dağıstanın ilk peşəkar qadın bəstəkarlarındandır. Belə ki, 1964-cü ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirdikdən sonra Q.Qarayev, O.Taktakişvili və Q.Dombayev kimi professorların rəhbərlik etdikləri komissiya tərəfindən Dağıstana göndərilib. Orada bir qədər çalışdıqdan sonra ailə vəziyyəti ilə əlaqədar vətənə dönüb. Yeri gəlmişkən, Elza İbrahimova bir müddət Əməkdar incəsənət xadimi Gülarə Əliyevanın rəhbəri olduğu “Dan ulduzu” vokal-instrumental ansamblı ilə sıx əməkdaşlıq edib. Duyğumuza hakim kəsilən “Bilməzdim”, “Gecələr bulaq başı”, “Qurban verərdim”, “Gəl barışaq”, “Mehribanım”, “Yoxluğunu bilə-bilə”, “Mən sənin yanına qışda gəlirdim”, “Sən yadıma düşəndə” və digər bu kimi əvəzsiz bəstələr Xalq artisti Elza

İbrahimova yaradıcılığının bəhrəsidir. O, bənzərsiz yaradıcılığı ilə ən yüksək zirvələri fəth edərək mənsub olduğu xalqın ürəyində özünə əbədi heykəl ucaldıb. O, fitri istedadı və böyük zəhməti sayəsində Azərbaycan bəstəkarlıq məktəbində yeni yol açmaqla həmkarlarının qibtə etdikləri səviyyəyə ucalıb, ifaçıların rəğbətini, kiçikdən-böyüyədək müxtəlif zövqlü dinləyicilərin məhəbbətini qazanıb, onlarda musiqinin bu və ya digər janrına maraq oyadıb. Musiqini qəlbinin, ruhunun ayrılmaz hissəsinə çevirən Elza İbrahimova mənalı ömür yaşayaraq üzərinə düşən missiyanı şərəflə başa vurub.

II aparıcı: Hələ uşaqkən musiqiyə böyük həvəs göstərmiş, valideynləri kiçik qızcığazın bu həvəsini nəzərə alaraq onu musiqi məktəbinə qoymuşdular. Əvvəl 8 saylı musiqi məktəbini, sonra Asəf Zeynallı adına musiqi məktəbini bitirmiş, 1958-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına qəbul olunmuşdu. Burada ilk müəllimi bəstəkar Cövdət Hacıyev olmuş, bir il sonra onu Qara Qarayev əvəz etmişdi. Ən çətin məqamlarda həmişə sevimli müəlliminə üz tutar, ondan məsləhətlər alardı. Onun diplom işi “Fortepiano və orkestr üçün konsert” konservatoriyanın böyük zalında Elza xanım və onun müəllimi Fəridə Quliyeva ilə birgə iki royalda səslənmiş, uğurlu ifadan sonra maestro Q.Qarayev tələbəsinə: “Bu nailiyyətlə kifayətlənməyin, davam edin!”_demişdi. Diplom işini dinləyən maestro Niyazinin rəyi isə belə olmuşdu: “Maraqlı, ancaq fortepiano fakturalı pianoçu üçün mürəkkəb əsərdir”.

Təbii ki, bu böyük sənətkarların fikirləri Elza xanımı bəstəkarlıqla daha ciddi məşğul olmağa ruhlandırmışdı.

**I Aparıcı:** Mahnı yaradıcılığı Elza İbrahimovanın fəaliyyətində əhəmiyyətli yer tutur. Onun mahnılarının ifaçıları da seçilir: R.Behbudov, F.Kərimova, İ.Rzayev, M.Babayev, İ.Quliyeva, G.Məmmədov, O.Ağayev, A.İslamzadə, E.Rəhimova və b. Elza xanım bir müddət “Dan ulduzu” vokal-insturimental ansamblında işləmiş, onun rəhbəri, əməkdar incəsənət xadimi Gülarə Əliyeva ilə dostluq etmişdi. Onun mahnılarını

dinləkdikdən sonra böyük müğənni Rəşid Behbudov da Elza xanımla əməkdaşlıq etməyə təşəbbüs göstərmişdi. O günləri Elza xanım belə xatırlayır: “Bir gün mənə zəng oldu, bərk həyəcanlandım. Böyük istedadı qarşısında səcdə etdiyim Rəşid Behbudovla danışmaq mənə elə çətin gəldi ki... İşimlə maraqlandı və mən “Ey Vətən” adlı mahnını tamamladığımı dedim və həmin mahnını ona təqdim etməyə özümdə cəsarət tapdım. Bizim əməkdaşlığımız belə başladı”.

Ölməz sənətkarımız R.Behbudov bu mahnını elə ifa etdi ki, “Ey Vətən” odlar ölkəsinin vizit kartına çevrildi, dünyanın hər yerində “Ey Vətən” dedi və günlərin birində bu dünyadan köçünü də bu nəğmənin həzin sədaları altında çəkdi...

Nəğmə dolu bir ürəyəm,
Torpağına baş əyərəm
Ey Vətən!..

Elza İbrahimova həmçinin kamera janrına da müraciət etmiş, simfonik poema, oratoriya, vokal-instrumental və kamera əsərləri, Hüseyn Cavidin pyesi əsasında “Afət”, “Yanan laylalar” poemalarını yazmışdır.

Bir sözlə Elza İbrahimova sevilən bəstəkarlardandır. Bu da səbəbsiz deyil. Xalq şairi Bəxtiyar Vahabzadə 1984-cü ildə “İşıq çeşməsi nəğmələr” məqaləsində yazırdı: “Elza İbrahimova mahnı janrında lövhə ustasıdır. O, gözlə görünən dünyanın deyil, görünə bilməyən, içəridən bizi dalğalandıran hisslərin, həyacanların, bir sözlə, iç dünyamızın rəssamıdır. O, səslərdən toxuduğu nəğmə naxışlarında bizə ovqatımızı, öz iç dünyamızı göstərir. Onun nəğmələrinin verdiyi bəsirət gözü ilə, o, bizi özümüzə, daxili aləmimizə baxmağa məcbur edir. Biz gözlərimiz önündə kəpənək kimi uçan sehrli səslərin arxasınca getməyə bilmirik, onun nəğmələrində gözə görünməz səslər predmetləşir, gözə görünən arzulara, duyğulara çevrilir. Bax budur əsl və böyük sənətin gücü və sehri!”.

**II Aparıcı:** Elza İbrahimovanın mahnılarında bir yanğı var, bu yanğı yalnız ona məxsusdur. Yanğı içdən gələr, fəryad ürəkdən qopar. Onun “Qayıt”, “Məhəbbət qürbətə gedərmiş”, “Bilməzdim” “Sən yadıma düşəndə”, Gecə bulaq başında” və s. Mahnılarında nəğmə ilə, sevgi ilə dolu bir ürəyin çırpıntıları, üsyanı duyulur. Odur ki, bu mahnlar da, onun müəllifi də dinləyici tərəfindən sevilir. Elza İbrahimovanın əbədiyaşar sənət naminə çəkdiyi zəhmət layiqincə qiymətləndirilmiş, dövlətin ən yüksək fəxri adlarına layiq görülüb. Vəfatından sonra isə sənətkar “Dədə Qorqud” Milli Fondunun və “Azərbaycan dünyası” beynəlxalq jurnalının ağsaqqallar şurasının qərarı ilə “Mehriban ana” ordeninə layiq görülüb. Bu gün qlobal dünyaya sürətlə inteqrasiya edən ölkəmizin yerli və xarici televiziya və radio kanallarında növbənöv musiqilər səsləndirilir, hətta bəzən məzmun və janr “bolluğundan” insan çaşbaş qalır. Lakin Elza İbrahimovanın musiqisi səslənəndə insan sanki ayılır, əsl sənətin heç zaman ölməyəcəyi qənaətinə gəlir. Tam əminliklə deyə bilərik ki, müasir musiqi mədəniyyətində bundan sonra hansı istiqamətlər yaransa belə, Elza İbrahimovanın əsərləri əbədi yaşayacaq, onun sehrli musiqisi hələ neçə-neçə nəsilləri heyran edəcək.

Heç şübhəsiz, Elza İbrahimova unudulmaz mahnıların unudulmaz bəstəkarı kimi adını Azərbaycan musiqi tarixinə yazıb... O, 11 fevral 2012-ci il tarixində 74 yaşında dünyasını dəyişdi. Musiqisinin sehri isə bu gün olduğu kimi sabah da insanları ovsunlayacaq. Ona “Qayıt” desək də, mərhum bəstəkar əbədi olaraq getdiyi yerdən qayıtmayacaq, ancaq ölməz mahnıları ən böyük səhnələrdə ən qüdrətli sənətkarlar tərəfindən hər dəfə oxunanda, könüllərə yol tapanda bu əvəzsiz nəğmələri yaradan bəstəkar yada düşəcək, xatırlanacaq. Elə bu da ömrün davamıdır.




Üzeyir Hacıbəylidən sonra ilk dəfə muğam əsasında opera yazan mərhum bəstəkar Elza İbrahimovanın musiqisinin sehri bu gün olduğu kimi gələcəkdə də insanları ovsunlamaqda davam edəcək. Yaşasaydı bəstələri ilə milyonların qəlbini fəth edən, mahnıları dillər əzbərinə çevrilən Azərbaycanın və Dağıstanın Xalq artisti Elza İbrahimovanın 85 yaşı olacaqdı.

Bəlkə biz özümüz də bilmədən bu görkəmli bəstəkarın nəğmələrinin təsiri altında böyümüşük. Mərhum bəstəkarın “Ana laylası”, “Gecələr bulaq başı”, “Yoxluğunu bilə-bilə”, “Qayıt”, “Ey vətən!” və onlarca digər nəğmələri keçmişlə bu gün arasında musiqi körpüsü yaradaraq zövqlülüyü, bəşəriliyi, səmimiliyi ilə ölümsüzlük qazanıb.

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

***Haqqında dövri mətbuatda***


**Abbaslı T.** Büsbütün yeni... : Tək elə sənətdə yox, tale, həyata baxış-naxış parametrlərində də təzə, orijinal və... aşırı prinsipial bəstəkar Elza İbrahimova // Mədəniyyət. - 2018. - 10 yanvar. - № 2. - S. 11.

**Azəri L.** İnandım ayrılığa... : unudulmaz bəstəkar Elza İbrahimovanın 80 illiyinə həsr olunan gecə keçirildi // Mədəniyyət. - 2018. - 23 fevral. - № 15. - S. 8.

**Azəri L.** Nəsilləri birləşdirən bəstəkar : Elza İbrahimova // Mədəniyyət. - 2012. - 11. 01. - № 1. - S. 6.

**Azəri L.** Sirli qadın : ölməz musiqiləri yaddaşlarda yaşayacaq // Mədəniyyət. - 2013. - 8 fevral. - № 10. - S. 13.

**Bayramova Z.** Elza İbrahimova - 80 : mənəvi saflıq dünyamız // Səs. - 2018. - № 20. – S. 4.

**Bayramqızı Ə.** Ötən günlərimi qaytaraydılar : bəstəkar Elza İbrahimova haqqında // Xalq qəzeti. - 2013. - 13 yanvar. - № 7. - S. 7.

**Dadaşov E.** İstedadlı bəstəkar : Elza İbrahimova haqqında // Mədəni Maarif. - 2011. - № 9. - S. 9-10.

Elza İbrahimova (1938-2012) // Savalan. - 2018. - 23-25 yanvar. - № 3. - S. 2.

Elza İbrahimova (1938-2012) // Savalan. - 2019. - 29-31 yanvar. - № 4. - S. 2.

Elza İmaməddin qızı İbrahimova // Azərbaycan. - 2012. - 12 fevral. - № 34. - S. 5.

**Fərəcova Z.** Mahnıları ilə sevilən bəstəkar : Musiqi xadimlərimiz // Azərbaycan : qəzet. - 2018. - 10 yanvar. - № 5. - S. 5.

**Xəlilzadə F.** Əsl sənətin sehri : bəstəkar Elza İbrahimova haqqında // Azərbaycan. - 2013. - 10 fevral. - № 31. - S. 8.

**Xəlilzadə F.** Sözlə cilvələnən musiqi : Elza İbrahimova // Azərbaycan. - 2008. - 13 yanvar. - S. 5.

**Kərim A.** Yorğunluğunu bilə-bilə // Qobustan. - 2022. - № 1(194). - S. 60-65.

**Qurbanlı R.** "Yanan laylalar"dan sonrakı "Peşmanlıq" // Kaspi. - 2018. - 22-24 dekabr. - № 221. - S. 16.

**Loğmanoğlu S.** Ürəklərdə yaşayan bəstəkar : Elza İbrahimova haqqında // Yeni Azərbaycan. - 2013. - 10 yanvar. - № 3. - S. 6.

**Vahid T.** Unudulmaz mahnıların unudulmayan bəstəkarı : Elza İbrahimova haqqında // Mədəniyyət. - 2013. - 9 yanvar. - № 1. - S. 12.

# Nəğmə dolu bir ürəyəm, Ey Vətən

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**